# 2 SAYLI KEYFİYYƏTİN İDARƏ EDİLMƏSİ STANDARTI

# TAPŞIRIĞIN KEYFİYYƏTİNİN TƏHLİLİ

(15 dekabr 2022-ci il tarixindən tez olmayaraq başlanan dövrlər üzrə maliyyə hesabatlarının auditi və təhlili üçün etibarlıdır və 15 dekabr 2022-ci il tarixindən tez olmayaraq başlanan digər əminlik və əlaqəli xidmətlər üzrə tapşırıqlar üçün etibarlıdır)

## MÜNDƏRİCAT


Paraqraf

**Giriş**

Bu BKİS-in əhatə dairəsi………………………………………………………………..…….. 1–4

Şirkətdə keyfiyyətin idarəedilməsi sistemi və tapşırığın keyfiyyətinin təhlilinin rolu…................... 5–9

Bu BKİS-in tətbiq sahəsi…………………………………………………………………….. 10

Qüvvəyə minmə tarixi………………………………………………………………........... 11

**Məqsəd** ………………..……………………………………………………….................. 12

**Anlayışlar** …………………………..………………………………………………............. 13

**Tələblər**

Müvafiq tələblərin tətbiq olunması və onlara riayət edilməsi…………………………………… 14–16

Tapşırıqların keyfiyyəti üzrə müşahidəçi-ekspertlərin təyin edilməsi və meyarlara uyğunluğu…....................................................................................................................... 17–23

Tapşırığın keyfiyyətinin təhlilinin yerinə yetirilməsi…………………………………………… 24–27

Sənədləşdirilmə ……………………………………………………………………………... 28–30

**Praktik tətbiq və digər izahedici materiallar**

Tapşırıqların keyfiyyəti üzrə müşahidəçi-ekspertlərin təyin edilməsi və meyarlara uyğunluğu…....................................................................................................................... A1–A24

Tapşırığın keyfiyyətinin təhlilinin yerinə yetirilməsi ……………………………………………… A25–A49

Sənədləşdirilmə ……………………………………………………………………………... A50–A53


2 saylı *“Tapşırığın keyfiyyətinin təhlili”* Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartı (BKİS), 1 saylı *“Maliyyə hesabatlarının auditini və ya təhlilini, yaxud digər təsdiqləmə və ya əlaqəli xidmətlər üzrə tapşırıqları yerinə yetirən şirkətlərdə keyfiyyətin idarə edilməsi”* BKİS ilə birlikdə oxunmalıdır.

# Giriş

## Bu BKİS-in əhatə dairəsi

1. Bu Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartı (BKİS) aşağıdakılardan bəhs edir:

   (a) Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin təyin edilməsi və meyarlara uyğunluğu; habelə

   (b) Tapşırığın keyfiyyətinin təhlilinin yerinə yetirilməsi və sənədləşdirilməsi ilə əlaqəli tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin məsuliyyətləri.

2. Bu BKİS, 1 saylı BKİS-ə [1] uyğun olaraq tapşırığın keyfiyyətinin yoxlanılması tələb olunan bütün tapşırıqlara tətbiq edilir. Bu BKİS müvafiq etik tələblərlə birlikdə oxunmalıdır.

3. Bu BKİS-ə uyğun olaraq yerinə yetirilən tapşırığın keyfiyyətinin təhlili 1 saylı BKİS-ə[2] uyğun olaraq şirkət tərəfindən hazırlanan və həyata keçirilən müəyyən edilmiş cavab tədbiridir. Tapşırığın keyfiyyətinin təhlili şirkətin adından tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert tərəfindən tapşırıq səviyyəsində yerinə yetirilir.

*Uyğunlaşdırılma*

4. Bu BKİS-ə əsasən tələb olunan tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin prosedurlarının xüsusiyyəti, müddəti və həcmi tapşırığın və ya müəssisənin xüsusiyyətindən və şərtlərindən asılı olaraq dəyişir. Məsələn, tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin prosedurları, çox ehtimal ki, tapşırıq qrupu tərəfindən daha az əhəmiyyətli mühakimələrin yürüdüldüyü tapşırıqlar üçün çox geniş olmayacaqdır.

## Şirkətdə keyfiyyət idarəetmə sistemi və tapşırığın keyfiyyətinin təhlilinin rolu

5. 1 saylı BKİS-də şirkətin keyfiyyət idarəetmə sistemi ilə bağlı məsuliyyətləri müəyyən edilir və şirkətdən keyfiyyət risklərinə verilən qiymətləndirmələrin səbəbləri əsasında və onlara cavab verən şəkildə keyfiyyət risklərini aradan qaldırmaq üçün cavab tədbirləri hazırlamağı və həyata keçirməyi tələb edir.[3] 1 saylı BKİS-də göstərilən cavab tədbirlərinə bu BKİS-ə uyğun olaraq tapşırığın keyfiyyətinin təhlili ilə bağlı siyasət və ya prosedurların müəyyən edilməsi daxildir.

6. Şirkət keyfiyyət idarəetmə sisteminin hazırlanması, tətbiqi və idarə olunmasına görə cavabdehdir. 1 saylı BKİS-ə əsasən, şirkətin məqsədi şirkəti aşağıdakılara dair ağlabatan əminliklə təmin edən, maliyyə hesabatlarının auditi və ya təhlili, yaxud şirkət tərəfindən həyata keçirilən digər təsdiqləmə və ya əlaqəli xidmətlər üzrə tapşırıqlar üçün keyfiyyət idarəetmə sistemini hazırlamaq, tətbiq etmək və idarə etməkdir:

   (a) Şirkət və onun heyəti öz məsuliyyətlərini peşə standartlarına və qüvvədə olan qanun və qaydaların tələblərinə uyğun yerinə yetirir və tapşırıqları bu cür standartlara və tələblərə uyğun yerinə yetirirlər; habelə

   (b) Şirkət və ya tapşırıq üzrə tərəfdaşlar tərəfindən təqdim edilən tapşırıq ilə bağlı hesabatlar şəraitə uyğundur.[4]

---

[1] 1 saylı "Maliyyə hesabatlarının auditini və ya təhlilini, yaxud digər təsdiqləmə və ya əlaqəli xidmətlər üzrə tapşırıqları yerinə yetirən şirkətlərdə keyfiyyətin idarə edilməsi" Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartı (ISQM) (Əvvəl 1 saylı Beynəlxalq Keyfiyyətə Nəzarət Standartı)

[2] 1 saylı BKİS, 34(f) paraqrafı

[3] 1 saylı BKİS, 26-cı paraqraf

[4] 1 saylı BKİS, 14-cü paraqraf

7. 1 saylı BKİS-də[5] izah edildiyinə uyğun olaraq tapşırıqların ardıcıl olaraq keyfiyyətlə yerinə yetirilməsi ictimai maraqlara xidmət edir. Tapşırıqların keyfiyyəti onların peşə standartlarına və qüvvədə olan qanun və qaydaların tələblərinə uyğun olaraq planlaşdırılması və yerinə yetirilməsi və bu tapşırıqlarla bağlı hesabatların təqdim edilməsi yolu ilə təmin edilir. Həmin standartların məqsədlərinə nail olunması və qüvvədə olan qanun və ya qaydaların tələblərinə riayət edilməsi peşəkar mühakimənin yürüdülməsi və tapşırığın növünə müvafiq olduqda, peşəkar inamsızlığın tətbiq edilməsini ehtiva edir.

8. Tapşırığın keyfiyyətinin təhlili tapşırıq qrupu tərəfindən yürüdülən əhəmiyyətli mühakimələrin və onlarla bağlı əldə edilmiş nəticələrin obyektiv qiymətləndirilməsidir. Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin əhəmiyyətli mühakimələr qiymətləndirməsi peşə standartları və qüvvədə olan qanun və qaydaların tələbləri kontekstində həyata keçirilir. Bununla belə, tapşırığın keyfiyyətinin təhlili bütövlükdə tapşırığın peşə standartlarına və qüvvədə olan qanun və qaydaların tələblərinə və ya şirkətin siyasət və ya prosedurlarına uyğun olub-olmamasının qiymətləndirilməsi üçün nəzərdə tutulmamışdır.

9. Tapşırıq keyfiyyətini nəzərdən keçirən şəxs tapşırıq komandasının üzvü deyildir. Tapşırığın keyfiyyətə nəzarət edilməsi tapşırığın idarə edilməsi və tapşırığın keyfiyyətinə nail olmaq, yaxud tapşırıq komandasının üzvlərinə rəhbərlik və nəzarət, onların işlərinin nəzərdən keçirilməsi tapşırıq üzrə tərəfdaşın məsuliyyətlərini dəyişmir. Tapşırığın keyfiyyətini nəzərdən keçirən şəxsdən tapşırığa dair rəyi və ya nəticəni dəstəkləmək üçün sübut əldə etmək tələb olunmur, lakin tapşırıq komandası tapşırığın keyfiyyətinə baxış zamanı qaldırılan məsələlərə cavab vermək üçün əlavə sübut əldə edə bilər.

### Bu BKİS-in tətbiq sahəsi

10. Bu BKİS şirkətin bu BKİS-ə riayət etmək məqsədini, şirkətə və tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertə həmin məqsədə çatmasına imkan yaratmaq üçün nəzərdə tutulmuş tələbləri ehtiva edir. Bundan əlavə, bu BKİS onun düzgün başa düşülməsi üçün müvafiq konteksti və anlayışları təmin edən praktik tətbiq və digər izahedici materiallar və giriş materialları şəklində əlaqəli tövsiyələri ehtiva edir. 1 saylı BKİS-də[6] məqsəd, tələblər, praktik tətbiq və digər izahedici materiallar, giriş materialları, terminləri və təriflər izah edilir.

### Qüvvəyə minmə tarixi

11. Bu BKİS aşağıdakılar üçün etibarlıdır:

(a) 15 dekabr 2022-ci il tarixindən tez olmayaraq başlayan dövrlər üzrə maliyyə hesabatlarının auditi və təhlili; habelə

(b) 15 dekabr 2022-ci il tarixindən tez olmayaraq başlayan digər təsdiqləmə və əlaqəli xidmətlər ilə bağlı tapşırıqlar.

## Məqsəd

12. Şirkətin məqsədi, meyarlara cavab verən tapşırığın keyfiyyəti üzrə müşahidəçi-eksperti təyin etməklə tapşırıq qrupu tərəfindən yürüdülən əhəmiyyətli mühakimələrin və onlarla bağlı əldə edilmiş nəticələrin obyektiv qiymətləndirilməsini həyata keçirməkdir.

## Anlayışlar

13. Bu BKİS-in məqsədləri üçün verilən terminlər aşağıdakı mənaları bildirir:

[5] 1 saylı BKİS, 15-ci paraqraf

[6] 1 saylı BKİS, 12-ci və A6–A9 paraqrafları

(a) Tapşırığın keyfiyyətinin təhlili (Engagement quality review) – Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert tərəfindən yerinə yetirilən və tapşırığın hesabatı tarixindən gec olmayaraq tamamlanan, tapşırıq qrupu tərəfindən yürüdülən əhəmiyyətli mühakimələrin və onlar ilə bağlı əldə edilən nəticələrin obyektiv qiymətləndirilməsi.

(b) Audit tapşırığının keyfiyyəti üzrə müşahidəçi-ekspert (Engagement quality reviewer) – Tapşırığın keyfiyyətini təhlil etmək üçün şirkət tərəfindən təyin edilmiş tərəfdaş, şirkətdə digər şəxs və ya kənar şəxs.

(c) Müvafiq etik normalar (Relevant ethical requirements) – Tapşırığın keyfiyyətinin təhlilini yerinə yetirərkən peşəkar mühasiblərə tətbiq olunan peşəkar etika prinsipləri və etik normalar. Müvafiq etik normalar bir qayda olaraq, daha sərt olan milli tələblərlə birlikdə maliyyə hesabatlarının auditi və ya təhlili, yaxud digər təsdiqləmə və ya əlaqəli xidmətlər üzrə tapşırıqlar ilə bağlı Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının *"Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi"nin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə)* (IESBA Məcəlləsi) müddəalarını ehtiva edir. (İst: Paraq. A12–A15)

## Tələblər

### Müvafiq tələblərin tətbiq olunması və onlara riayət edilməsi

14. Bu BKİS-in məqsədini başa düşmək və onlara aid olan tələbləri düzgün tətbiq etmək üçün şirkət və tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert bu BKİS-in məqsədi, o cümlədən praktik tətbiq və izahedici materiallar haqqında anlayış əldə etməlidir.

15. Tələb tapşırığın şərtlərinə uyğun olmadığı hallar istisna olmaqla, şirkət və ya tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert, müvafiq olaraq, bu BKİS-in hər bir tələbinə riayət etməlidir.

16. Tələblərin düzgün tətbiq edilməsinin bu standartın məqsədinə nail olmaq üçün yetərli əsas yaratması gözlənilir. Bununla belə, əgər şirkət və ya tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert müvafiq tələblərin tətbiq edilməsinin bu standartın məqsədinə nail olmaq üçün yetərli əsas vermədiyini müəyyən edərsə, şirkət və ya tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert, məqsədə çatmaq üçün müvafiq olaraq, əlavə tədbirlər görməlidir.

### Tapşırıqların keyfiyyəti üzrə müşahidəçi-ekspertlərin təyin edilməsi və meyarlara uyğunluğu

17. Şirkət tapşırıqların keyfiyyəti üzrə müşahidəçi-ekspertlərin təyin edilməsi üzrə məsuliyyəti, onu yerinə yetirmək üçün səriştəsi, imkanları və şirkət daxilində müvafiq səlahiyyəti olan şəxsə (şəxslərə) həvalə edilməsini tələb edən siyasət və ya prosedurlar müəyyən etməlidir. Həmin siyasət və ya prosedurlar belə şəxsdən (şəxslərdən) tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert təyin etməyi tələb etməlidir. (İst: Paraq. A1–A3)

18. Şirkət tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert kimi təyin olunmaq üçün uyğunluq meyarlarını müəyyən edən siyasət və ya prosedurları müəyyən etməlidir. Həmin siyasət və ya prosedurlar tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin tapşırıq qrupunun üzvü olmamasını və aşağıdakıları tələb etməlidir: (İst: Paraq. A4)

    (a) Tapşırığın keyfiyyətinin təhlilini yerinə yetirmək üçün kifayət qədər vaxt da daxil olmaqla, səriştəyə, imkanlara və müvafiq səlahiyyətə malik olmasını; (İst: Paraq. A5–A11)

    (b) Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin obyektivliyi və müstəqilliyi üçün təhlükələr də daxil olmaqla, müvafiq etik normalara riayət etməsini; habelə (İst: Paraq. A12–A15)

    (c) Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin meyarlara uyğunluğu ilə əlaqəli qanun və qaydaların (əgər varsa) müddəalarına riayət etməsini. (İst: Paraq. A16)

19. Şirkətin 18(b) paraqrafına uyğun olaraq müəyyən edilmiş siyasət və ya prosedurlarında, həmçinin əvvəllər tapşırıq üzrə tərəfdaş kimi fəaliyyət göstərdikdən sonra tapşırığın keyfiyyəti üzrə

müşahidəçi-ekspert kimi təyin edilmiş şəxsin obyektivliklə bağlı yaratdığı təhlükələr də əks etdirilməlidir. Bu cür siyasət və ya prosedurlarda tapşırıq üzrə tərəfdaşın tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert vəzifəsini öz üzərinə götürməzdən əvvəl iki illik cəlbedilməmə müddəti və ya müvafiq etik normalar tələb etdikdə, daha uzun müddət müəyyən edilməlidir. (İst: Paraq. A17–A18)

20. Şirkət tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertə kömək edən şəxslərin uyğunluq meyarlarını müəyyən edən siyasət və ya prosedurlar müəyyən etməlidir. Həmin siyasət və ya prosedurlar belə şəxslərin tapşırıq qrupunun üzvü olmamasını və aşağıdakıları tələb etməlidir:

(a) Onlara həvalə edilmiş vəzifələri yerinə yetirmək üçün kifayət qədər vaxt da daxil olmaqla, səriştə və imkanlara malik olmalarını; habelə (İst: Paraq. A19)

(b) Müvafiq etik normalara, o cümlədən onların obyektivliyi və müstəqilliyi üçün təhlükələrlə əlaqəli və müvafiq hallarda, qanun və qaydaların müddəalarına riayət etmələrini (İst: Paraq. A20– A21)

21. Şirkət aşağıdakı siyasət və ya prosedurları müəyyən etməlidir:

(a) Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin tapşırığın keyfiyyətinin təhlilinin yerinə yetirilməsi üçün ümumi məsuliyyəti öz üzərinə götürməsini tələb edən; habelə

(b) Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin təhlilin yerinə yetirilməsinə kömək edən şəxslərə rəhbərlik və nəzarətin xüsusiyyətini, müddətini və həcmini müəyyən etmək, habelə onların işinin təhlili üçün məsuliyyəti əks etdirən. (İst: Paraq. A22)

*Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin tapşırığın keyfiyyətinin təhlilini yerinə yetirmək üçün meyarlara uyğunluğunun pozulması*

22. Şirkət tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin tapşırığın keyfiyyətinin təhlilini yerinə yetirmək üçün meyarlara uyğunluğunun pozulduğu halları və şirkət tərəfindən görülməli olan müvafiq tədbirləri, o cümlədən belə hallarda əvəzedici şəxsin müəyyən edilməsi və təyin edilməsi prosesini əhatə edən siyasət və ya prosedurları müəyyən etməlidir. (İst: Paraq. A23)

23. Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin meyarlara uyğunluğunu pozan şəraitlər tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertə məlum olduqda, tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert şirkətdə müvafiq şəxsə (şəxslərə) məlumat verməlidir, habelə: (İst: Paraq. A24)

(a) Tapşırığın keyfiyyətinin təhlili başlamadığı halda, tapşırığın keyfiyyətinin təhlilini yerinə yetirmək üçün təyinatdan imtina etməlidir; yaxud

(b) Tapşırığın keyfiyyətinin təhlili başladığı halda, tapşırığın keyfiyyətinin təhlilini dayandırmalıdır.

**Tapşırığın keyfiyyətinin təhlilinin yerinə yetirilməsi**

24. Şirkət tapşırığın keyfiyyətinin təhlilinin yerinə yetirilməsi ilə bağlı aşağıdakıları əks etdirən siyasət və ya prosedurları müəyyən etməlidir:

(a) Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin tapşırıq qrupu tərəfindən yürüdülmüş əhəmiyyətli mühakimələrin və onlarla bağlı əldə edilmiş nəticələrin obyektiv qiymətləndirilməsi üçün müvafiq əsas təmin etmək məqsədilə tapşırığın yerinə yetirilməsi zamanı müvafiq vaxtda 25-26-cı paraqraflara uyğun prosedurların yerinə yetirilməsi üzrə məsuliyyətləri;

(b) Tapşırıq üzrə tərəfdaşın tapşırığın keyfiyyətinin təhlili ilə bağlı məsuliyyətləri, o cümlədən tapşırığın keyfiyyətinin təhlilinin başa çatması barədə tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertdən bildiriş alınana qədər tapşırıq hesabatının tarixinin qoyulmasının qadağan edilməsi; habelə (İst: Paraq. A25–A26)

(c) Əhəmiyyətli mühakimə haqqında tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertlə tapşırıq qrupunun müzakirələrinin xüsusiyyəti və həcmi tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin obyektivliyinə təhlükə yaratdığı halları və bu şəraitdə görüləcək müvafiq tədbirləri. (İst: Paraq. A27)

25. Tapşırığın keyfiyyətinin təhlilini yerinə yetirərkən tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert aşağıdakıları etməlidir: (İst: Paraq. A28–A33)

(a) Aşağıdakı məlumatları oxumalı və anlayış əldə etməlidir: (İst: Paraq. A34)

(i) Tapşırıq qrupu tərəfindən tapşırığın və müəssisənin xüsusiyyəti və şərtləri ilə bağlı verilən məlumatları; habelə

(ii) Şirkət tərəfindən şirkətin monitorinq və çatışmazlıqların aradan qaldırılması prosesi, xüsusən tapşırıq qrupunun əhəmiyyətli mühakimələr yürütdüyü sahələrə aid ola bilən və ya təsir göstərə bilən çatışmazlıqlarla bağlı verilən məlumatları.

(b) Mühüm məsələləri və tapşırığın planlaşdırılması, yerinə yetirilməsi və hesabatvermə zamanı yürüdülən mühakimələri tapşırıq üzrə tərəfdaş və müvafiq halda, tapşırıq qrupunun digər üzvləri ilə müzakirə etməlidir. (İst: Paraq. A35–A38)

(c) (a) və (b) bəndlərində əldə edilmiş məlumatlara əsasən, tapşırıq qrupu tərəfindən yürüdülən əhəmiyyətli mühakimələrə aid seçilmiş tapşırıq sənədlərini təhlil etməli və aşağıdakıları qiymətləndirməlidir: (İst: Paraq. A39–A43)

(i) bu əhəmiyyətli mühakimələrin yürüdülməsi üçün əsas, o cümlədən tapşırığın növünə tətbiq oluna bildikdə, tapşırıq qrupunun peşəkar inamsızlıq tətbiq etməsini;

(ii) tapşırıq sənədlərinin əldə edilən nəticələrini əsaslandırıb-əsaslandırmamasını; habelə

(iii) Əldə edilən nəticələrin uyğun olub-olmamasını.

(d) Maliyyə hesabatlarının auditində tapşırıq üzrə tərəfdaşın müstəqilliklə bağlı müvafiq etik normaların yerinə yetirildiyini müəyyən etməsi üçün əsasları qiymətləndirməlidir. (İst: Paraq. A44)

(e) Çətin və ya mübahisəli məsələləri, yaxud fikir ayrılıqlarını ehtiva edən məsələlər və bu məsləhətləşmələrdən irəli gələn nəticələr ilə bağlı müvafiq məsləhətləşmələrin olub-olmamasını qiymətləndirməlidir. (İst: Paraq. A45)

(f) Maliyyə hesabatlarının auditində tapşırıq üzrə tərəfdaşın audit tapşırığı yerinə yetirilərkən iştirakının tapşırıq üzrə tərəfdaşa tapşırığın xüsusiyyəti və şərtləri nəzərə alınmaqla yürüdülən əhəmiyyətli mühakimələrin və əldə edilən nəticələrin müvafiq olduğunu müəyyən etmək üçün əsas verəcək dərəcədə yetərli və müvafiq olmasını tapşırıq üzrə tərəfdaşın müəyyən etməsi üçün əsası qiymətləndirməlidir. (İst: Paraq. A46)

(g) Aşağıdakıları təhlil etməlidir:

(i) Maliyyə hesabatlarının auditi üçün maliyyə hesabatlarını və onlar üzrə auditorun hesabatını, o cümlədən, müvafiq halda əsas audit məsələlərinin təsvirini; (İst: Paraq. A47)

(ii) Təhlil tapşırıqları üçün maliyyə hesabatlarını və ya maliyyə məlumatlarını və onlara dair tapşırıq üzrə hesabatı; yaxud (İst: Paraq. A47)

(iii) Digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə tapşırıqlar üçün tapşırığa dair hesabatı və müvafiq hallarda yoxlama predmeti üzrə məlumatları. (İst: Paraq. A48)

26. Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin tapşırıq qrupu tərəfindən yürüdülən əhəmiyyətli mühakimələrin və ya onlara dair əldə edilən nəticələrin müvafiq olmaması ilə bağlı narahat edən məsələlər olduğu halda tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert tapşırıq üzrə tərəfdaşa xəbər

vermәlidir. Bu cür narahat edәn mәsәlәlәr tapşırığın keyfiyyәti üzrә müşahidәçi-eksperti qane edәcәk şәkildә aradan qaldırılmadığı halda, tapşırığın keyfiyyәti üzrә müşahidәçi-ekspert tapşırığın keyfiyyәtinin tәhlilinin tamamlana bilmәyәcәyi barәdә şirkәtdә müvafiq şәxsә (şәxslәrә) mәlumat vermәlidir. (İst: Paraq. A49)

*Tapşırığın keyfiyyәtinin tәhlilinin tamamlanması*

27. Tapşırığın keyfiyyәti üzrә müşahidәçi-ekspert bu BKİS-in tapşırığın keyfiyyәtinin tәhlilinin yerinә yetirilmәsi ilә bağlı tәlәblәrinin yerinә yetirilib-yetirilmәdiyini vә tapşırığın keyfiyyәtinin tәhlilinin tamamlanıb-tamamlandığını müәyyәn etmәlidir. Bu müәyyәn edildiyi halda tapşırığın keyfiyyәti üzrә müşahidәçi-ekspert tapşırığın keyfiyyәtinin tәhlilinin tamamlanması barәdә tapşırıq üzrә tәrәfdaşa mәlumat vermәlidir.

**Sәnәdlәşdirilmә**

28. Şirkәt tapşırığın keyfiyyәti üzrә müşahidәçi-ekspertin tapşırığın keyfiyyәtinin tәhlili üzrә mәsuliyyәti öz üzәrinә götürmәsini tәlәb edәn siyasәt vә ya prosedurlar müәyyәn etmәlidir. (İst: Paraq. A50)

29. Şirkәt tapşırığın keyfiyyәtinin tәhlilinin 30-cu paraqrafa uyğun olaraq sәnәdlәşdirilmәsini vә bu sәnәdlәşdirilmәnin tapşırığın sәnәdlәşdirilmәsinә daxil edilmәsini tәlәb edәn siyasәt vә ya prosedurlar müәyyәn etmәlidir.

30. Tapşırığın keyfiyyәti üzrә müşahidәçi-ekspert müәyyәn etmәlidir ki, tapşırığın keyfiyyәtinin tәhlilinin sәnәdlәrşdirilmәsi tapşırıqla әvvәllәr heç bir әlaqәsi olmayan tәcrübәli mütәxәssis-praktikә vә müvafiq hallarda müşahidәçi-ekspertә kömәk edәn şәxslәrә tapşırığın keyfiyyәti üzrә müşahidәçi-ekspertin yerinә yetirdiyi prosedurların xüsusiyyәti, müddәti vә hәcmi, habelә onlarla bağlı әldә edilәn nәticәlәr barәdә anlayış әldә etmәyә imkan vermәk üçün yetәrlidir. Tapşırığın keyfiyyәti üzrә müşahidәçi-ekspert hәmçinin tapşırığın keyfiyyәtinin tәhlilinin sәnәdlәşdirilmәsinә aşağıdakıların daxil olduğunu müәyyәn etmәlidir: (İst: Paraq. A51–A53)

    (a) Tapşırığın keyfiyyәti üzrә müşahidәçi-ekspertin vә tapşırığın keyfiyyәtinә nәzarәt edilmәsinә kömәk edәn şәxslәrin adlarının;

    (b) Tәhlil edilmiş tapşırıq sәnәdlәşdirilmәsinin eynilәşdirilmәsinin;

    (c) 27-ci paraqrafa uyğun olaraq tapşırığın keyfiyyәti üzrә müşahidәçi-ekspertin müәyyәn etmәsi üçün әsasın;

    (d) 26 vә 27-ci paraqraflara uyğun olaraq tәlәb olunan bildirişlәrin; habelә

    (e) Tapşırığın keyfiyyәtinә nәzarәtin tamamlanma tarixinin.

***

## Praktik tətbiq və digər izahedici materiallar

### Tapşırıqların keyfiyyəti üzrə müşahidəçi-ekspertlərin təyin edilməsi və meyarlara uyğunluğu

*Tapşırıqların keyfiyyəti üzrə müşahidəçi-ekspertlərin təyin olunması üçün məsuliyyətin müəyyən edilməsi* (İst: Paraq. 17)

A1. Tapşırıqların keyfiyyəti üzrə müşahidəçi-ekspertin təyin edilməsi üçün məsuliyyəti yerinə yetirmək qabiliyyətinə aid olan səriştə və bacarıqlara aşağıdakılar haqqında müvafiq biliklər daxil ola bilər:

- Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertlərin məsuliyyətləri;
- Tapşırıqların keyfiyyəti üzrə müşahidəçi-ekspertlərin meyarlara uyğunluğu ilə bağlı 18 və 19-cu paraqraflarda əks etdirilən meyarlar; habelə
- Tapşırıq qrupunun tərkibi də daxil olmaqla, tapşırığın keyfiyyətinin təhlilinin şamil olunduğu tapşırığın və ya müəssisənin xüsusiyyəti və şərtləri.

A2. Şirkətin siyasət və ya prosedurlarında müəyyən edilə bilər ki, tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertlərin təyin edilməsinə cavabdeh olan şəxs tapşırığın keyfiyyətinin təhlili yerinə yetirilməli olan tapşırıq qrupunun üzvü olmamalıdır. Bununla belə, müəyyən şəraitlərdə (məs., çox böyük olmayan şirkətdə və ya ayrıca mütəxəssis-praktik olduğu halda) tapşırıq qrupunun üzvü olmayan şəxsin tapşırığın keyfiyyəti üzrə müşahidəçi-eksperti təyin etməsi mümkün olmaya bilər.

A3. Şirkət tapşırıqların keyfiyyəti üzrə müşahidəçi-ekspertlərin təyin edilməsinə cavabdeh olmaq üçün bir neçə şəxsi təyin edə bilər. Məsələn, şirkətin siyasət və ya prosedurlarında listinq subyekti olan müəssisələrin auditi üçün tapşırıqların keyfiyyətinin təhlili üzrə müşahidəçi nəzərdən keçirənlərin təyin edilməsi üçün siyahıya daxil olmayan müəssisələrin və ya digər tapşırıqların auditindən fərqli olaraq, hər bir prosesə cavabdeh olan müxtəlif şəxsləri müəyyən edə bilər..

*Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin meyarlara uyğunluğu* (İst: Paraq. 18)

A4. Bəzi hallarda, məsələn, çox böyük olmayan şirkət və ya fərdi mütəxəssis-praktik üçün tapşırığın keyfiyyətinin təhlilini yerinə yetirmək üçün meyarlara uyğun olan tərəfdaş və ya digər şəxs şirkətdə olmaya bilər. Bu şəraitdə şirkət tapşırığın keyfiyyətinin təhlilini yerinə yetirmək üçün şirkətdən kənar şəxslərlə müqavilə bağlaya və ya onların xidmətlərini əldə edə bilər. Şirkətdən kənar şəxs şəbəkə şirkətinin, şirkətin şəbəkəsindəki strukturun və ya təşkilatın tərəfdaşı və ya əməkdaşı, yaxud xidmət təminatçısı ola bilər. Belə bir şəxsdən istifadə edərkən, şəbəkəyə dair tələbləri və ya şəbəkənin xidmətləri və ya xidmət təminatçılarına ünvanlanan 1 saylı BKİS-in müddəaları tətbiq edilir.

*Tapşırığın keyfiyyəti üzrə mütəxəssis-praktik üçün uyğunluq meyarları*

Səriştəlilik və bacarıqlar, o cümlədən yetərli vaxt (İst: Paraq. 18(a))

A5. 1 saylı BKİS-də texniki səriştəliliyin, peşəkar bacarıqların və peşə etikasının, dəyərlərin və münasibətlərin inteqrasiyası və tətbiqi də daxil olmaqla, səriştəlilik ilə əlaqəli xüsusiyyətləri təsvir olunur.[7] Fərdin tapşırığın keyfiyyətinə baxış keçirmək üçün lazımi səriştəyə malik olduğunu müəyyən edərkən firmanın nəzərə ala biləcəyi aşağıdakı məsələlər daxildir:

- Peşə standartları və tətbiq olunan qanun və qaydaların tələbləri və tapşırığa aid şirkətin siyasət və ya prosedurları haqqında anlayış;
- Müəssisənin fəaliyyət göstərdiyi sahə haqqında biliklər;

---

7 1 saylı BKİS, A88 paraqrafı

- Oxşar xüsusiyyətə və mürəkkəbliyə malik olan tapşırıqlar və onlarla əlaqəli təcrübə haqqında anlayış; habelə
- Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin tapşırığın keyfiyyətinin təhlilinin yerinə yetirilməsi və sənədləşdirilməsi üzrə məsuliyyətləri haqqında anlayışı, hansı ki, şirkətin müvafiq təlimlərini keçməklə əldə edilə və ya genişləndirilə bilər.

A6. Tapşırığın keyfiyyətinin təhlili bir və ya bir neçə keyfiyyət riskini azaltmaq üçün uyğun cavab tədbirinin olduğunu müəyyən edərkən şirkət tərəfindən nəzərə alınan şərtlər, hadisələr, vəziyyətlər, hərəkətlər və ya hərəkətsizliklər[8] həmin tapşırığın keyfiyyətinin təhlili üçün zəruri olan şirkətin səriştəliliyinin və imkanlarının müəyyən edilməsində mühüm mülahizə ola bilər. Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin tapşırıq qrupu tərəfindən yürüdülmüş əhəmiyyətli mühakimələri və onlara dair əldə etdiyi nəticələri qiymətləndirmək üçün lazım olan yetərli vaxt da daxil olmaqla, səriştəliliyə və imkanlara malik olub-olmadığını müəyyən edərkən şirkətin nəzərə ala biləcəyi digər mülahizələr aşağıdakıları ehtiva edə bilər, məsələn:

- Müəssisənin xüsusiyyəti.
- Müəssisənin fəaliyyət göstərdiyi sahə və ya tənzimləyici mühitin özünə xas xüsusiyyəti və mürəkkəbliyi.
- Tapşırığın xüsusi təcrübə (məsələn, informasiya texnologiyaları (İT) və ya ixtisaslaşdırılmış mühasibat uçotu və ya audit sahələri ilə bağlı), yaxud müəyyən təsdiqləmə tapşırıqları üçün lazım ola biləcək elmi və texniki-mühəndislik təcrübəsi tələb olunan məsələlərə nə dərəcədə aid olması. Həmçinin bax: A19 paraqrafı.

A7. Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert kimi təyin edilə bilən şəxsin səriştəliliyi və bacarıqlarının qiymətləndirilməsində şirkətin monitorinq fəaliyyətindən irəli gələn nəticələr (məsələn, şəxsin tapşırıq qrupunun üzvü və ya tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert olduğu tapşırıqların yoxlamalarının nəticələri) və ya kənar yoxlamaların nəticələri də müvafiq mülahizələr ola bilər.

A8. Müvafiq səriştəlilik və ya imkanların olmaması tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin təhlili yerinə yetirərkən müvafiq peşəkar mühakimə yürütmək qabiliyyətinə təsir göstərir. Məsələn, müvafiq sahədə təcrübəsi olmayan tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert mürəkkəb sahəyə xas olan mühasibat və ya audit məsələsi üzrə tapşırıq komandası tərəfindən yürüdülən əhəmiyyətli mühakimələri və peşəkar inamsızlığı qiymətləndirmək və zəruri hallarda onlara etiraz etmək üçün lazımi bacarıq və ya inama malik olmaya bilər.

Müvafiq tətbiq sahəsi (İst: Paraq. 18(a))

A9. Şirkət səviyyəsində fəaliyyət tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin səlahiyyətlərini müəyyən etməyə kömək edir. Məsələn, tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin vəzifəsinə hörmət yaradıldıqda, tapşırığın keyfiyyətinin təhlilinin nəticələrinə qeyri-müvafiq şəkildə təsir göstərmək məqsədilə tapşırıq üzrə tərəfdaş və ya digər işçi heyəti tərəfindən tapşırığın keyfiyyəti üzrə müşahidəçi ekspertin təzyiqə məruz qalma ehtimalı az olur. Bəzi hallarda, fikir ayrılıqlarının aradan qaldırılmasını, o cümlədən tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert ilə tapşırıq qrupu arasında fikir ayrılığı yarandıqda tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin görə biləcəyi

[8] 1 saylı BKİS, A134 paraqrafı

tədbirləri əhatə edən şirkətin siyasəti və ya prosedurları tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin səlahiyyətini gücləndirilə bilər.

A10. Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin səlahiyyəti aşağıdakı hallarda azala bilər:

- Şirkətdəki mədəniyyət yalnız şirkət daxilində daha yüksək iyerarxiya səviyyəsində olan işçi heyətinin səlahiyyətlərinə hörməti təşviq etdikdə.
- Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert tapşırıq üzrə tərəfdaşın tabeçiliyində olduqda, məsələn, tapşırıq üzrə tərəfdaş şirkətdə rəhbər vəzifə tutduqda və ya tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin təzminatının müəyyən edilməsinə cavabdeh olduqda.

İctimai sektora xas olan mülahizələr

A11. İctimai sektorda auditor (məsələn, baş auditor və ya baş auditorun adından təyin edilmiş digər müvafiq ixtisaslı şəxs) ictimai sektorda audit üçün ümumi məsuliyyət daşıyan tapşırıq üzrə tərəfdaşın vəzifəsi ilə eyni vəzifədə ola bilər. Belə hallarda tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin seçilməsində müstəqilliyə ehtiyac və tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin obyektiv qiymətləndirməni təmin etmək qabiliyyəti nəzərə alına bilər.

Müvafiq etik normalar (İst: Paraq. 13(c), 18(b))

A12. Tapşırığın keyfiyyətinin təhlili yerinə yetirilərkən tətbiq olunan müvafiq etik normalar tapşırığın və ya müəssisənin xüsusiyyətindən və şərtlərindən asılı olaraq dəyişə bilər. Müvafiq etik normaların müxtəlif müddəaları şirkətin özünə deyil, yalnız fərdi peşəkar mühasiblərə, məsələn, tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertə tətbiq oluna bilər.

A13. Müvafiq etik normalar tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert kimi fərdi peşəkar mühasiblərə şamil ediləcək müstəqilliklə bağlı xüsusi tələbləri ehtiva edə bilər. Müvafiq etik normalar, həmçinin audit və ya əminlik sifarişçisi ilə uzun müddət əməkdaşlıq nəticəsində müstəqilliyə təhlükə yaradan müddəaları da ehtiva edə bilər. Uzunmüddətli əlaqə ilə bağlı hər hansı bu cür müddəaların tətbiqi 19-cu paraqrafa uyğun olaraq tələb olunan işə cəlb edilməmə müddətindən fərqlidir, lakin tətbiq edilərkən nəzərə alınmalıdır.

Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin obyektivliyi üçün təhlükələr

A14. Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin obyektivliyi üçün təhlükələri bir çox müxtəlif faktlar və şəraitlər yarada bilər. Məsələn:

- Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert əvvəllər tapşırıq qrupu tərəfindən, xüsusən də tapşırıq üzrə tərəfdaş və ya digər tapşırıq qrupunun üzvü qismində əhəmiyyətli mühakimələrin yürüdülməsində iştirak etdikdə, özünü təhliletmə təhlükəsi yarana bilər.
- Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert tapşırıq üzrə tərəfdaşın yaxın və ya bilavasitə ailə üzvü və ya tapşırıq qrupunun digər üzvü olduqda, yaxud tapşırıq qrupunun üzvləri ilə yaxın və şəxsi münasibətlər vasitəsilə tanışlıq və ya şəxsi maraq təhlükəsi yarana bilər.
- Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertə faktiki və ya ehtimal edilən təzyiq göstərildikdə (məsələn, tapşırıq üzrə tərəfdaş aqressiv və ya dominant şəxs olduqda, yaxud tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert tapşırıq üzrə tərəfdaşın tabeçiliyində olduqda) hədə-qorxu təhlükəsi yarana bilər.

A15. Müvafiq etik normalar obyektivlik üçün təhlükələri müəyyən etmək, qiymətləndirmək və aradan qaldırmaq üçün tələblər və tövsiyələri əhatə edə bilər. Məsələn, IESBA Məcəlləsində aşağıdakı misallar da daxil olmaqla xüsusi tövsiyələr təqdim edilir:

- Peşəkar mühasib tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert kimi təyin edildikdə obyektivlik üçün təhlükə yarana bilən hallar;
- Bu cür təhlükələrin səviyyəsinin qiymətləndirilməsi üçün uyğun olan amillər; habelə
- Bu cür təhlükələri aradan qaldıra bilən tədbirlər, o cümlədən təhlükəsizlik tədbirləri.

Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin meyarlara uyğunluğuna aid qanun və ya qaydalar (İst: Paraq. 18(c))

A16. Qanun və ya qaydalar tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin meyarlara uyğunluğu ilə bağlı əlavə tələblər müəyyən edə bilər. Məsələn, bəzi yurisdiksiyalarda tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin tapşırığın keyfiyyətinin təhlilini yerinə yetirmək üçün müəyyən keyfiyyətlərə malik olması və ya lisenziyasının olması tələb oluna bilər.

*Əvvəllər tapşırıq üzrə tərəfdaş kimi fəaliyyət göstərdikdən sonra şəxs üçün cəlb edilməmə müddəti (İst: Paraq. 19)*

A17. Təkrarlanan tapşırıqlarda əhəmiyyətli mühakimələrin yürüdüldüyü məsələlər çox vaxt fərqlənmir. Buna görə də, əvvəlki dövrlərdə yürüdülən əhəmiyyətli mühakimələr sonrakı dövrlərdə tapşırıq qrupunun mühakimələrinə təsir göstərməyə davam edə bilər. Buna görə də, tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert əvvəllər əhəmiyyətli mühakimələrin yürüdülməsində tapşırığın tərəfdaşı kimi iştirak etməsi, belə şəxsin həmin mühakimələrin obyektiv qiymətləndirilməsini həyata keçirmək qabiliyyətinə təsir göstərir. Belə şəraitdə obyektivlik üçün təhlükələri, xüsusən də özünü təhliletmə təhlükəsini məqbul səviyyəyə endirmək üçün müvafiq təhlükəsizlik tədbirlərinin tətbiqi vacibdir. Müvafiq olaraq, bu BKİS üzrə şirkətdən tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert kimi təyin edilməsinə icazə verilmədiyi cəlb edilməmə müddəti müəyyən edilən siyasət və ya prosedurlar müəyyən etməsi tələb olunur.

A18. Şirkətin siyasət və ya prosedurlarında, həmçinin tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert kimi təyin olunmaq hüququ əldə etməzdən əvvəl, cəlb edilməmə müddətinin tapşırıq üzrə tərəfdaş olmayan şəxs üçün uyğun olub-olmamasını da əhatə edə bilər. Bununla əlaqədar olaraq, şirkət tapşırığa dair yürüdülmüş əhəmiyyətli mühakimələrdə həmin şəxsin rolunun xüsusiyyətini və əvvəlki iştirakını nəzərə ala bilər. Məsələn, şirkət müəyyən edə bilər ki, qrup audit tapşırığının bölməsinin maliyyə məlumatları üzrə audit prosedurlarının yerinə yetirilməsinə cavabdeh olan tapşırıq üzrə tərəfdaş qrup tapşırığının keyfiyyəti üzrə müşahidəçi-ekspert kimi təyin olunmaq üçün meyarlara uyğun olmaya bilər, çünki audit üzrə həmin tərəfdaş qrup audit tapşırığına təsir göstərən əhəmiyyətli mühakimələrin yürüdülməsində iştirak etmişdir.

*Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin köməkçilərdən istifadə etdiyi hallar* (İst: Paraq. 20–21)

A19. Müəyyən hallarda tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertə müvafiq təcrübəyə malik olan şəxs və ya şəxslərdən ibarət qrup tərəfindən köməklik edilməsi məqsədəuyğun ola bilər. Məsələn, dar ixtisaslaşdırılmış bilik, bacarıq və ya təcrübə tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertə həmin əməliyyatlarla bağlı tapşırıq qrupu tərəfindən yürüdülən əhəmiyyətli mühakimələri qiymətləndirməyə kömək etmək məqsədilə müəssisə tərəfindən həyata keçirilən müəyyən əməliyyatlar haqqında anlayış əldə etmək üçün faydalı ola bilər.

A20. A14 paraqrafında əks etdirilən tövsiyələr tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertə kömək edən şəxslərin obyektivliyi üçün təhlükələri aradan qaldıran siyasət və ya prosedurları müəyyən edərkən şirkət üçün faydalı ola bilər.

A21. Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertə şirkətdən kənar şəxs kömək etdikdə, köməkçinin məsuliyyətləri, o cümlədən müvafiq etik normalara riayətetmə ilə bağlı məsuliyyətlər şirkət ilə köməkçi arasında bağlanan müqavilədə və ya digər razılaşmada müəyyən edilə bilər.

A22. Şirkətin siyasətləri və ya prosedurları tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin aşağıdakı məsuliyyətlərini ehtiva edə bilər:

- Köməkçilərin onlara verilən göstərişləri başa düşüb-düşmədiklərini və işin tapşırığın keyfiyyətinin təhlilinə planlaşdırılmış yanaşmaya uyğun olaraq həyata keçirilib-keçirilmədiyini nəzərdən keçirmək; habelə
- Köməkçilərin qaldırdığı məsələlərin əhəmiyyətliliyini nəzərə alaraq və planlaşdırılmış yanaşmanı müvafiq şəkildə dəyişdirməklə, onları həll etmək.

*Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin tapşırığın keyfiyyətinin təhlilini yerinə yetirmək üçün meyarlara uyğunluğunun pozulması* (İst: Paraq. 22–23)

A23. Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin tapşırığın keyfiyyətinin təhlilini yerinə yetirmək üçün meyarlara uyğunluğunun pozulub-pozulmadığının nəzərdən keçirilməsində şirkətə aid ola bilən amillərə aşağıdakılar daxildir:

- Tapşırığın şərtlərindəki dəyişikliklərin nəticəsində tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin təhlili yerinə yetirmək üçün müvafiq səriştə və imkanlara artıq malik olub-olmaması;
- Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin digər öhdəliklərindəki dəyişikliklərin həmin şəxsin təhlili yerinə yetirmək üçün artıq yetərli vaxtının olmadığını göstərib-göstərməməsi; yaxud
- 23-cü paraqrafa uyğun olaraq tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin bildiriş göndərməsi.

A24. Tapşırığın keyfiyyəti üzrə mütəxəssis-ekspertin tapşırığın keyfiyyətinin təhlilini yerinə yetirmək üçün meyarlara uyğunluğu pozulduğu şəraitdə şirkətin siyasət və ya prosedurlarında meyarlara uyğun olan alternativ şəxslərin müəyyən edilməsi prosesi təyin edilə bilər. Şirkətin siyasət və ya prosedurlarında həmçinin tapşırığın keyfiyyətinin təhlilinin yerinə yetirilməsi ilə bağlı bu BKİS-in tələblərini yerinə yetirmək məqsədilə yetərli prosedurları tətbiq etmək üçün təyin edilən tapşırığın keyfiyyəti üzrə müşahidəçi-eksperti əvəz edən şəxsin məsuliyyəti də əks etdirilə bilər. Bu cür siyasət və ya prosedurlarda əlavə olaraq belə şəraitdə məsləhətləşmə ehtiyacı əks etdirilə bilər.

**Tapşırığın keyfiyyətinin təhlilinin yerinə yetirilməsi** (İst: Paraq. 24–27)

*Tapşırığın keyfiyyətinin təhlili ilə əlaqədar tapşırıq üzrə tərəfdaşın məsuliyyətləri* (İst: Paraq. 24(b))

A25. 220 saylı (düzəliş edilmiş) BAS-da[9] tapşırığın keyfiyyətinin təhlili tələb olunduğu audit tapşırıqlarında tapşırıq üzrə tərəfdaş üçün tələblər müəyyən edilir, o cümlədən:

- Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin təyin olunduğunun müəyyən edilməsi;

[9] 220 saylı (düzəliş edilmiş) “*Maliyyə hesabatlarının auditi üçün keyfiyyətin idarə edilməsi”* Beynəlxalq Audit Standartı (BAS), 36-cı paraqraf

- Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertlə əməkdaşlıq və tapşırıq qrupunun digər üzvlərinə bunu etmək məsuliyyətləri barədə məlumatın verilməsi;
- Audit tapşırığı zamanı ortaya çıxan, o cümlədən tapşırığın keyfiyyətinin təhlili zamanı aşkar edilən əhəmiyyətli məsələlərin və əhəmiyyətli mühakimələrin tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertlə müzakirə edilməsi; habelə
- Tapşırığın keyfiyyətinin təhlili başa çatmayana qədər auditor hesabatına tarix qoyulmaması.

A26. 3000 saylı (düzəliş edilmiş) ISAE-də[10], həmçinin tapşırığın keyfiyyətinin təhlili ilə bağlı tapşırıq üzrə tərəfdaş üçün tələblər müəyyən edilir.

*Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert ilə tapşırıq qrupu arasında müzakirələr* (İst: Paraq. 24(c))

A27. Tapşırıq yerinə yetirilərkən tapşırıq qrupu ilə tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert arasında tez-tez məlumatvermə tapşırığın keyfiyyətinin səmərəli və vaxtında təhlilini asanlaşdıra bilər. Bununla belə, tapşırıq qrupu ilə əhəmiyyətli mühakimə haqqında müzakirələrin müddətindən və həcmindən asılı olaraq tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin obyektivliyi üçün təhlükə yarana bilər. Şirkətin siyasət və ya prosedurlarında tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin tapşırıq qrupu adından qərarlar qəbul etdiyi və ya belə ola biləcəyinin ehtimal edildiyi hallara yol verməmək üçün tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert və ya tapşırıq qrupu tərəfindən görüləcək tədbirlər müəyyən edilə bilər. Məsələn, bu şəraitdə şirkət öz məsləhətləşmə siyasətlərinə və ya prosedurlarına uyğun olaraq digər müvafiq işçi heyəti ilə bu cür əhəmiyyətli mühakimələr haqqında məsləhətləşmə tələb edə bilər.

*Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert tərəfindən yerinə yetirilən prosedurlar* (İst: Paraq. 25–27)

A28. Şirkətin siyasət və ya prosedurlarında tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert tərəfindən yerinə yetirilən prosedurların xüsusiyyəti, müddəti və həcmi müəyyən edilə bilər və həmçinin təhlili yerinə yetirərkən peşəkar mühakimə yürüdən tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin əhəmiyyətliliyi vurğulana bilər.

A29. Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert tərəfindən yerinə yetirilən prosedurların müddəti tapşırığın və ya müəssisənin xüsusiyyətindən və şərtindən, o cümlədən təhlil edilməli olan məsələlərin xüsusiyyətindən asılı ola bilər. Tapşırığın bütün mərhələlərində (məsələn, planlaşdırma, yerinə yetirilmə və hesabatvermə) tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert tərəfindən tapşırığın sənədlərinin vaxtında təhlil edilməsi tapşırıq üzrə hesabatın tarixindən gec olmayaraq tapşırığın keyfiyyəti üzrə müşahidəçi-eksperti qane edəcək şəkildə məsələləri dərhal həll etməyə imkan verir. Məsələn, tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert planlaşdırma mərhələsinin sonunda tapşırığın ümumi strategiyası və planı ilə bağlı prosedurlar yerinə yetirə bilər. Tapşırığın keyfiyyətinin təhlilinin vaxtında yerinə yetirilməsi, həmçinin tapşırığın planlaşdırılması və yerinə yetirilməsi zamanı tapşırıq qrupu tərəfindən peşəkar mühakimə yürütməsini və tapşırığın növünə aid olduqda, peşəkar inamsızlığı gücləndirə bilər.

A30. Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin xüsusi tapşırığa dair prosedurlarının xüsusiyyəti və həcmi digər amillərlə yanaşı aşağıdakılardan asılı ola bilər:

- Keyfiyyət risklərinin[11] qiymətləndirmələrinin səbəbləri, məsələn, tapşırıqların inkişaf edən sahələrdə və ya əməliyyatları mürəkkəb olan müəssisələr üçün yerinə yetirilməsi.

---

[10] 3000 saylı (düzəliş edilmiş) *"Keçmiş dövrlər üzrə maliyyə məlumatlarının auditi və ya yoxlaması olmayan təsdiqləmə tapşırıqları"* Təsdiqləmə Tapşırıqlarına dair Beynəlxalq Standart (ISAE), 36-cı paraqraf

- Şirkətin monitorinq və çatışmazlıqların aradan qaldırılması prosesi ilə bağlı aşkar edilmiş çatışmazlıqlar və onların aradan qaldırılması üçün tədbirlər, habelə tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert tərəfindən daha geniş prosedurların yerinə yetirilməli olduğu sahələri göstərə bilən, şirkətin hazırladığı müvafiq tövsiyələr.
- Tapşırığın mürəkkəbliyi.
- Müəssisənin listinq subyekti olub-olmaması da daxil olmaqla, müəssisənin xüsusiyyəti və ölçüsü.
- Tapşırığa aid olan nəticələr, məsələn əvvəlki dövrdə kənar nəzarət orqanı tərəfindən aparılan yoxlamaların nəticələri və ya tapşırıq qrupunun işinin keyfiyyəti ilə bağlı qaldırılan digər narahat edən məsələlər.
- Sifarişçi və xüsusi tapşırıqların şirkət tərəfindən qəbul edilməsindən və davam etdirilməsindən əldə edilən məlumatlar.
- Təsdiqləmə tapşırıqları üçün tapşırıq qrupu tərəfindən tapşırıqda əhəmiyyətli təhrif risklərinin aşkar edilməsi və qiymətləndirilməsi və onlara qarşı cavab tədbirləri.
- Tapşırıq qrupunun üzvlərinin tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertlə əməkdaşlıq edib-etməməsi. Tapşırıq qrupu tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertlə əməkdaşlıq etmədiyi hallarda şirkətin siyasət və ya prosedurları tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin gördüyü tədbirləri (məsələn, problemi həll etmək məqsədilə müvafiq tədbirlərin görülməsi üçün şirkətdə müvafiq şəxsin məlumatlandırılması) əhatə edə bilər.

A31. Tapşırığın keyfiyyətinin təhlili yerinə yetirilərkən rast gəlinən şəraitlərə əsasən tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin prosedurların xüsusiyyətini, müddətini və həcmini dəyişdirmək lazım ola bilər.

Qrup auditinə xas olan mülahizələr

A32. Qrup maliyyə hesabatlarının auditi üçün tapşırığın keyfiyyətinin təhlilinin yerinə yetirilməsi qrupun ölçüsündən və mürəkkəbliyindən asılı olaraq, qrup auditi üçün tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert kimi təyin edilmiş şəxs üçün əlavə mülahizələri əhatə edə bilər. 21(a) paraqrafına uyğun olaraq şirkətin siyasət və ya prosedurlarında tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin tapşırığın keyfiyyətinin təhlilinin yerinə yetirilməsi üçün ümumi məsuliyyəti öz üzərinə götürməsini tələb etməlidir. Bunu edərkən, daha böyük və mürəkkəb qrup auditi üçün, qrup tapşırığının keyfiyyəti üzrə müşahidəçi-ekspertin əhəmiyyətli məsələləri və əhəmiyyətli mühakimələri qrup tapşırığının heyəti olmayan tapşırıq qrupunun əsas üzvləri ilə (məs., bölmənin maliyyə məlumatları ilə bağlı audit prosedurlarının yerinə yetirilməsi üçün məsuliyyət daşıyanlar) müzakirə etməsi lazım ola bilər. Bu şəraitdə tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertə 20-ci paraqrafa uyğun olaraq köməkçi şəxslər kömək edə bilər. Qrup auditi üçün tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert köməkçilərdən istifadə etdikdə A22 paraqrafında verilən tövsiyələr faydalı ola bilər.

A33. Bəzi hallarda, məsələn, qanun, qaydalar və ya digər səbəblərdən belə auditin aparılması tələb olunduqda, qrupun tərkibindəki müəssisə və ya biznes bölməsinin auditi üçün tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert təyin edilə bilər. Bu şəraitdə, qrup auditi üçün tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert ilə həmin müəssisənin və ya biznes bölməsinin auditi üçün tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert arasında məlumatvermə qrup tapşırığının keyfiyyəti üzrə müşahidəçi-

---

[11] 1 saylı BKİS, A49 paraqrafı

ekspertə 21(a) paraqrafına uyğun olaraq öhdəliklərin yerinə yetirməkdə kömək edə bilər. Bu, məsələn, müəssisə və ya biznes bölməsinin qrup auditinin məqsədləri üçün bölmə kimi müəyyən edildiyi və bölmə səviyyəsində qrup auditi ilə bağlı əhəmiyyətli mühakimələrin yürüdüldüyü hal ola bilər.

Tapşırıq qrupu və şirkət tərəfindən verilən məlumatlar (İst: Paraq. 25(a))

A34. Tapşırıq qrupu və şirkət tərəfindən 25(a) paraqrafına uyğun olaraq verilən məlumat haqqında anlayışın əldə edilməsi tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertə tapşırığa dair gözlənilən əhəmiyyətli mühakimələr haqqında anlayış əldə etməyə kömək edə bilər. Bu cür anlayış, həmçinin tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertə tapşırığın planlaşdırılması, yerinə yetirilməsi və tapşırıqla bağlı hesabatvermə zamanı əhəmiyyətli məsələlər və əhəmiyyətli mühakimələr barədə tapşırıq qrupu ilə müzakirələr üçün əsası təmin edə bilər. Məsələn, şirkət tərəfindən müəyyən edilmiş çatışmazlıq digər tapşırıq qrupları tərəfindən müəyyən sahə üzrə müəyyən uçot qiymətləndirmələri üçün yürüdülən əhəmiyyətli mühakimələrə aid ola bilər. Belə olduqda, bu cür məlumat həmin uçot qiymətləndirmələri ilə bağlı tapşırığa dair yürüdülən əhəmiyyətli mühakimələrə uyğun ola bilər və buna görə də tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertə 25(b) paraqrafına uyğun olaraq tapşırıq qrupu ilə müzakirələr üçün əsası təmin edə bilər.

Əhəmiyyətli məsələlər və əhəmiyyətli mühakimələr (İst: Paraq. 25(b)–25(c))

A35. Maliyyə hesabatlarının auditi üçün 220 saylı (düzəliş edilmiş) BAS[12] üzrə tapşırıq üzrə tərəfdaşdan əhəmiyyətli məsələlər[13] və əhəmiyyətli mühakimələr, o cümlədən tapşırıq zamanı müəyyən edilmiş çətin və ya mübahisəli məsələlərlə bağlı audit sənədlərini və əldə edilmiş nəticələri təhlil etməsi tələb olunur.

A36. Maliyyə hesabatlarının auditi üçün 220 saylı (düzəliş edilmiş) BAS-da[14] tapşırığın başlanması, yerinə yetirilməsi üçün ümumi audit strategiyası və audit planı və tapşırıq qrupunun əldə etdiyi bütün nəticələr ilə bağlı tapşırıq üzrə tərəfdaş tərəfindən müəyyən edilə bilən əhəmiyyətli mühakimələrin nümunələri təqdim edilir.

A37. Maliyyə hesabatlarının auditi olmayan tapşırıqlar üçün tapşırıq qrupu tərəfindən yürüdülən əhəmiyyətli mühakimələr tapşırığın və ya müəssisənin xüsusiyyətindən və şərtlərindən asılı ola bilər. Məsələn, 3000 saylı (düzəliş edilmiş) ISAE-yə uyğun olaraq yerinə yetirilən təsdiqləmə tapşırığında yoxlama predmeti üzrə məlumatların hazırlanmasında tətbiq olunacaq meyarların tapşırığa uyğun olub-olmamasının tapşırıq qrupu tərəfindən müəyyən edilməsi üçün əhəmiyyətli mühakimə yürüdülə və ya tələb edilə bilər.

A38. Tapşırığın keyfiyyətinin təhlilini yerinə yetirərkən tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertə tapşırıq qrupunun yerinə yetirdiyi prosedurlar və ya əldə edilən nəticələr üçün əsaslar haqqında əlavə məlumatlara ehtiyac olduğu, tapşırıq qrupu tərəfindən əhəmiyyətli mühakimələrin yürüdülməsi gözlənilən digər sahələr məlum ola bilər. Belə hallarda tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert ilə müzakirələr nəticəsində tapşırıq qrupu əlavə prosedurların yerinə yetirilməli olduğu qənaətinə gələ bilər.

A39. 25(a) və 25(b) paraqraflarına uyğun olaraq əldə edilən məlumatlar və seçilmiş tapşırıq sənədlərinin təhlili tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertə əhəmiyyətli mühakimələrin yürüdülməsi üçün tapşırıq qrupunun əsaslarını qiymətləndirməkdə kömək edir. Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin qiymətləndirməsinə aid ola bilən digər mülahizələrin nümunələrinə aşağıdakılar daxildir:

---

12 220 saylı (düzəliş edilmiş) BAS, 31-ci paraqraf

13 230 saylı *"Auditin sənədləşdirilməsi"* BAS, 8(c) paraqrafı

14 220 saylı (düzəliş edilmiş) BAS, A92 paraqrafı

- Tapşırıq qrupu tərəfindən yürüdülən əhəmiyyətli mühakimələrdə dəyişikliklərlə nəticələnə bilən, tapşırığın və ya müəssisənin xüsusiyyətində və şərtlərindəki dəyişikliklərə qarşı diqqətli olma;
- Tapşırıq qrupundan alınan cavabları qiymətləndirərkən obyektiv baxışın tətbiq edilməsi; habelə
- Tapşırıq sənədləri təhlil edilərkən aşkar edilmiş uyğunsuzluqların, yaxud əhəmiyyətli mühakimələrlə bağlı suallara tapşırıq qrupu tərəfindən verilən ziddiyyətli cavabların təqib edilməsi.

A40. Şirkətin siyasət və ya prosedurlarında tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert tərəfindən təhlil olunacaq tapşırıq sənədləri müəyyən edilə bilər. Bundan əlavə, bu cür siyasət və ya prosedurlarda qeyd oluna bilər ki, tapşırıq qrupu tərəfindən yürüdülən əhəmiyyətli mühakimələrlə bağlı təhlil olunacaq əlavə tapşırıq sənədlərinin seçilməsində tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert peşəkar mühakimə yürüdür.

A41. Tapşırıq üzrə tərəfdaşla və müvafiq hallarda tapşırıq qrupunun digər üzvləri ilə müzakirələr tapşırıq qrupunun sənədləri ilə birlikdə tapşırığa aid olduqda tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertə əhəmiyyətli mühakimələrə dair tapşırıq qrupu tərəfindən peşəkar inamsızlığın tətbiq edilməsini qiymətləndirməkdə kömək edə bilər.

A42. Maliyyə hesabatlarının auditi üçün 220 saylı (düzəliş edilmiş) BAS-da[15] tapşırıq səviyyəsində peşəkar inamsızlığın tətbiq edilməsinə maneələr, peşəkar inamsızlığın tətbiq edilməsinə mane ola biləcək auditor qeyri-obyektivliyi və tapşırıq qrupunun tapşırıq səviyyəsində peşəkar inamsızlığın tətbiq edilməsinə maneələri aradan qaldırmaq üçün görə biləcəyi mümkün tədbirlərə dair nümunələr təqdim edilir.

A43. Maliyyə hesabatlarının auditi üçün 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS-da[16], 540 saylı (düzəliş edilmiş) BAS-da[17] və digər BAS-larda verilən tələblər və müvafiq praktik tətbiq materialları həmçinin auditorun peşəkar inamsızlıq tətbiq etdiyi audit sahələrinin nümunələri, yaxud müvafiq sənədləşdirilmənin auditorun peşəkar inamsızlığı necə tətbiq etdiyinə dair sübutlar təmin etməyə kömək edə bilən halların nümunələri verilir. Bu cür tövsiyələr həmçinin tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertə tapşırıq qrupu tərəfindən peşəkar inamsızlığın tətbiq edilməsini qiymətləndirməkdə kömək edə bilər.

Müstəqilliklə bağlı müvafiq etik normaların yerinə yetirilib-yetirilməməsi (İst: Paraq. 25(d))

A44. 220 saylı (düzəliş edilmiş) BAS-a[18] uyğun olaraq tapşırıq üzrə tərəfdaşdan auditor hesabatının tarixi qoyulmazdan əvvəl müvafiq etik normaların, o cümlədən müstəqilliklə bağlı olanların yerinə yetirilib-yetirilmədiyini müəyyən etmək üçün məsuliyyət daşıması tələb edilir.

Mürəkkəb və ya mübahisəli məsələlər, yaxud fikir ayrılıqlarını ehtiva edən məsələlər ilə bağlı məsləhətləşmənin olub-olmaması (İst: Paraq. 25(e))

A45. 1 saylı BKİS[19] çətin və ya mübahisəli məsələlər, yaxud tapşırıq qrupu daxilində və ya tapşırıq qrupu ilə tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert və ya şirkətin keyfiyyət idarəetmə sistemi daxilində fəaliyyət göstərən şəxslər arasında fikir ayrılıqları ilə bağlı məsləhətləşmələrdən bəhs edir.

---

[15] 220 saylı (düzəliş edilmiş) BAS, A34-A36 paraqraflar

[16] 315 saylı (2019-cu ildə düzəliş edilmiş) *"Əhəmiyyətli təhriflər riskinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi"* BAS, A238 paraqrafı

[17] 540 saylı (düzəliş edilmiş) *"Uçot qiymətləndirmələrinin və əlaqəli açıqlamaların auditi"* BAS, A11 paraqrafı

[18] 220 saylı (düzəliş edilmiş) BAS, 21-ci paraqraf

[19] 1 saylı BKİS, 31(d), 31(e) və A79-A82 paraqrafları

Tapşırıq üzrə tərəfdaşın tapşırıqda yetərli və müvafiq iştirakı (İst: Paraq. 25(f))

A46. 220 saylı (düzəliş edilmiş) BAS-a[20] uyğun olaraq tapşırıq üzrə tərəfdaşdan tələb olunur ki, auditor hesabatına tarix qoyulmazdan əvvəl tapşırıq üzrə tərəfdaşın audit tapşırığı yerinə yetirilərkən iştirakının tapşırıq üzrə tərəfdaşa tapşırığın xüsusiyyəti və şərtləri nəzərə alınmaqla yürüdülən əhəmiyyətli mühakimələrin və əldə edilən nəticələrin müvafiq olduğunu müəyyən etmək üçün əsas verəcək dərəcədə yetərli və müvafiq olmasını müəyyən etsin. 220 saylı (düzəliş edilmiş) BAS[21] həmçinin göstərir ki, tapşırıq üzrə tərəfdaşın iştirakı müxtəlif yollarla sənədləşdirilə bilər. Tapşırıq qrupu ilə müzakirələr və bu cür tapşırıq sənədlərinin təhlili tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin tapşırıq üzrə tərəfdaşın iştirakının yetərli və müvafiq olduğunu müəyyən etməsi üçün əsasların qiymətləndirməsinə kömək edə bilər.

Maliyyə hesabatlarının və tapşırıq üzrə hesabatların təhlili (İst: Paraq. 25(g))

A47. Maliyyə hesabatlarının auditi üçün tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin maliyyə hesabatlarını və onlara dair auditorun hesabatını təhlili tapşırıq qrupu tərəfindən yürüdülən əhəmiyyətli mühakimələrlə bağlı məsələlərin təqdim edilməsi və açıqlanmasının tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin həmin məsələlər barədə anlayışına uyğun olub-olmamasının seçilmiş tapşırıq sənədlərinin təhlili və tapşırıq qrupu ilə müzakirələr əsasında nəzərdən keçirirlməsini ehtiva edə bilər. Maliyyə hesabatlarını təhlil edərkən, tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertə, həmçinin tapşırıq qrupunun prosedurları və ya nəticələri haqqında əlavə məlumat tələb oluna bilən, tapşırıq qrupu tərəfindən əhəmiyyətli mühakimələrin yürüdülməsi ehtimal edilən digər sahələr də məlum ola bilər. Bu paraqrafda əks etdirilən tövsiyələr həmçinin təhlil tapşırıqlarına və tapşırığa dair əlaqəli hesabata da şamil edilir.

A48. Digər təsdiqləmə və əlaqəli xidmət tapşırıqları üçün tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin tapşırıq üzrə hesabatın və müvafiq hallarda yoxlama predmeti üzrə məlumatların təhlili A47 paraqrafında təsvir olunanlara oxşar mülahizələri ehtiva edə bilər (məsələn, tapşırıq qrupu tərəfindən yürüdülən əhəmiyyətli mühakimələr ilə əlaqəli məsələlərin təqdim və ya təsvir edilməsinin tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin təhlil ilə əlaqədar yerinə yetirilən prosedurlara əsaslanan anlayışına uyğun olub-olmaması).

Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-eksperti narahat edən həll olunmamış məsələlər (İst: Paraq. 26)

A49. Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin tapşırıq qrupu tərəfindən yürüdülən əhəmiyyətli mühakimələrin və ya onlarla bağlı əldə edilən nəticələrin müvafiq olmaması ilə bağlı həll edilməmiş narahat edən məsələləri olduqda, şirkətin siyasət və ya prosedurları şirkətdə məlumatlandırılmalı olan şəxsləri müəyyən edə bilər. Bu cür şəxs (şəxslər) tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertlərin təyin edilməsi üçün məsuliyyət daşıyan şəxsi (şəxsləri) ehtiva edə bilər. Belə həll edilməmiş narahat edən məsələlərlə əlaqədar olaraq, şirkətin siyasət və ya prosedurları həm şirkət daxilində, həm də şirkətdən kənar məsləhətləşməni tələb edə bilər (məsələn, peşəkar və ya tənzimləyici orqan).

**Sənədləşdirilmə** (İst: Paraq. 28–30)

A50. 1 saylı BKİS-in 57-60-cı paraqraflarında şirkətin keyfiyyət idarəetmə sisteminin sənədləşdirilməsi əks etdirilir. Bu BKİS-ə uyğun olaraq yerinə yetirilən tapşırığın keyfiyyətinin təhlili bu səbəbdən 1 saylı BKİS-in sənədləşdirilməyə dair tələblərinə tabedir.

[20] 220 saylı (düzəliş edilmiş) BAS, 40(a) paraqrafı

[21] 220 saylı (düzəliş edilmiş) BAS, A118 paraqrafı

A51. Tapşırığın keyfiyyətinin təhlilinin sənədləşdirilməsinin forması, məzmunu və həcmi aşağıdakı kimi amillərdən asılı ola bilər:

- Tapşırığın xüsusiyyəti və mürəkkəbliyi;
- Müəssisənin xüsusiyyəti;
- Tapşırığın keyfiyyətinin təhlilinin şamil olunduğu məsələlərin xüsusiyyəti və mürəkkəbliyi; habelə
- Təhlil edilmiş tapşırığın sənədləşdirilməsinin həcmi.

A52. Tapşırığın keyfiyyətinin təhlilinin yerinə yetirilməsi və başa çatması barədə bildiriş bir sıra üsullarla sənədləşdirilə bilər. Məsələn, tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert tapşırığın sənədləşdirilməsinin təhlilinin tapşırığın yerinə yetirilməsi üçün İT proqramında elektron vasitələrlə sənədləşdirə bilər. Alternativ olaraq, tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert təhlili memorandum vasitəsilə sənədləşdirə bilər. Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin prosedurları başqa üsullarla da, məsələn, tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin iştirak etdiyi tapşırıq qrupunun müzakirələrinin protokollarında sənədləşdirilə bilər.

A53. 24(b) paraqrafına uyğun olaraq tələb olunur ki, şirkətin siyasət və ya prosedurları tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert tərəfindən qaldırılan məsələlərin həllini ehtiva edən tapşırığın keyfiyyətinin təhlili başa çatana qədər tapşırıq üzrə tərəfdaşa tapşırıq üzrə hesabatın tarixini qoymağı qadağan etsin. Tapşırığın keyfiyyətinin təhlilinin yerinə yetirilməsi ilə bağlı bütün tələblərin yerinə yetirilməsi şərtilə, təhlilin sənədləşdirilməsi tapşırıq üzrə hesabatın tarixindən sonra, lakin yekun tapşırığın faylının yığılmasından əvvəl yekunlaşdırıla bilər. Bununla belə, şirkətin siyasət və ya prosedurlarında qeyd edilə bilər ki, tapşırığın keyfiyyətinin təhlilinin sənədləşdirilməsi tapşırıq üzrə hesabatın tarixindən gec olmayaraq yekunlaşdırılmalıdır.